

# ŞƏRQ qapısı


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 3 (24.140)

*10 yanvar 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan özünü dünyada güclü idman dövləti kimi təsdiqləyib

### *Prezident İlham Əliyev ötən ilin idman yekunlarına həsr olunmuş mərasimdə iştirak edib*

Yanvarın 9-da 2022-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı






– Əziz dostlar, bu gün biz ilin idman yekunlarını müzakirə edəcəyik. Hər il olduğu kimi, keçən il də Azərbaycan idmanı üçün uğurlu il olmuşdur. Bütövlükdə, ölkə miqyasında görülmüş işlərə yüksək qiymət vermək olar. Çünki keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra edildi, Azərbaycanın dinamik inkişafı təmin olundu. İdman da həyatımızın tərkib hissəsi olduğu üçün, əlbəttə ki, ümumi tendensiya çərçivəsində inkişaf etmişdir. Bunu həm idmançılarımızın qələbələri göstərir, eyni zamanda ölkəmizdə keçirilmiş müxtəlif beynəlxalq yarışlar Azərbaycanı bir daha idman ölkəsi kimi təsdiqləyir. Bütövlükdə, son illərdə aparılan siyasət bu gün öz gözəl nəticələrini verməkdədir.

İdmançılar beynəlxalq yarışlarda 800-dən çox medal qazanmışlar, onlardan 300-ə yaxını qızıl medaldır. Doğrudan da, böyük nailiyyətdir. Çünki dünyada idman sahəsində rəqabət artır, yeni idman ölkələri meydana çıxır. Ona görə hər il bu yüksək nəticələri göstərmək, öz gücünü təsdiqləmək asan məsələ deyil.

Dünya, Avropa çempionatlarında idmançılarımız ölkəmizi ləyaqətlə təmsil etmişlər. Beynəlxalq yarışlar arasında xüsusilə V İslam Həmrəyliyi Oyunlarını qeyd etmək istərdim. Bildiyiniz kimi, 5 il bundan əvvəl Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında Azərbaycan komanda hesabında birinci olmuşdur. Bu, tarixi qələbə idi və bu dəfə Türkiyənin Konya şəhərində 56 ölkə arasında idmançılarımız 99 medalla 4-cü yerə layiq görülmüşlər. Bu, bir daha Azərbaycanın idman sahəsindəki uğurlarını təsdiqləyir. Çünki İslam Həmrəyliyi Oyunlarında rəqabət çox böyük idi, demək olar ki, bütün komandalar əsas heyətlə təmsil olunurdu. Gərgin mübarizə zamanı 4-cü yeri tutmaq, əlbəttə, ki, böyük qələbədir, böyük nailiyyətimizdir.

Bu Oyunları biz izləmişik və əfsuslar olsun, yenə də qeyd etməli oluruq ki, hakim ədalətsizliyi bizi bir neçə medaldan məhrum etmişdir. Buna baxmayaraq, bu böyük nailiyyət, – mən bunu qələbə hesab edirəm, – bir daha Azərbaycan idmanının gücünü təsdiqləyir və göstərir ki, Azərbaycanda idmanın inkişafı ardıcıl xarakter daşıyır. Çünki 5 il əvvəl Bakıda iştirak etmiş idmançılarımızın bir çoxu Konyada İslam Həmrəyliyi Oyunlarında iştirak etmirdi. Beləliklə, nəsillər dəyişir, ancaq uğurlarımız sabit qalır və bu, bir önəmli məsələyə diqqətimizi çəkir – yəni, o mənada ki, burada da biz inkişaf və uğur görürük, nəsillər dəyişdikcə görkəmli idmançılarımızın təcrübəsi elə bil ki, gənc idmançılara təhvil verilir. Yəni Azərbaycanda yetişən gənc idmançılar bizim idman şöhrətimizi bundan sonra da yüksəklərdə saxlayacaqlar və bu, daimi proses olmalıdır.

Gənc idmançıların hazırlanması, əlbəttə ki, mütəşəkkil qaydada təmin edilməlidir.




Son vaxtlar bu sahədə daha məqsədyönlü fəaliyyət də göz önündədir, xüsusilə seleksiya işləri. Bölgələrdə keçirilmiş çoxsaylı tədbirlər gəncləri, uşaqları, yeniyetmələri idman bölmələrinə cəlb etmək üçün daha böyük imkanlar yaradacaq.

Son bir neçə il ərzində bütün ölkə üzrə müxtəlif yarışlar keçirilmişdir, mən bunu çox yüksək qiymətləndirirəm. Gənclər və idman naziri qarşısında qoyulan vəzifələrdən biri də məhz bu idi ki, bölgələrdə idman canlansın və bir çox yarışlar keçirilsin. Bu siyasət həm idman uğurlarımızı şərtləndirəcək, eyni zamanda gənclər, yeniyetmələr, uşaqlar gənc, uşaqlıq yaşlarından idmana cəlb ediləcək və bunun onların tərbiyəsi üçün çox böyük əhəmiyyəti var. Çünki idman həm fiziki gücdür, həm də özündə fiziki güc hiss edən hər bir insan, adətən, mənəvi cəhətdən də sağlam olur. Bizim görkəmli idmançılarımızın uğurları və nümunəsi bütün gənc idmançılar üçün örnək olmalıdır. Çünki bizim idmançılarımız həyatda, cəmiyyətdə, məişətdə də özlərini ləyaqətlə aparırlar və idman arenalarında qazanılmış uğurları adi həyatda da öz hərəkətləri ilə təsdiqləyirlər. Beləliklə, gənclərdə, uşaqlarda idmanla məşğul olmaq, görkəmli idmançılara oxşamaq həvəsi daha da böyük olur. Əlbəttə ki, idmana dövlət dəstəyi – bunun da xüsusi əhəmiyyəti var. Biz bunu Azərbaycanın timsalında görmüşük ki, idmana, idmançılara diqqət olan yerdə, qayğı olan yerdə, hörmət olan yerdə, əlbəttə, nəticələr də olacaq.

İdman hər bir ölkənin ictimai həyatının önəmli bir hissəsidir. Bəzi ölkələrdə bu, prioritet sayılır, Azərbaycandakı kimi. Bəzi ölkələrdə sayılmır. Amma mən hesab edirəm ki, biz düzgün yoldayıq. Çünki həm ölkəmizin şöhrəti, eyni zamanda sağlam həyat tərzinin təbliğ edilməsi – bu amillər hər bir ölkə üçün önəmli olmalıdır.

Sevindirici hal ondan ibarətdir ki, bu gün idmanla məşğul olmaq üçün bütün imkanlar var. Bölgələrdə 50-yə yaxın Olimpiya İdman Kompleksi yaradılmışdır, bu proses davam etdirilir. Eyni zamanda biz Bakı şəhərində ən mötəbər idman yarışlarını qəbul etmişik və yeni yarışları qəbul edəcəyik. Ölkəmizdə həm dünya, həm Avropa çempionatları keçiriləcək, Olimpiya Oyunlarının təsnifat turnirləri də əvvəllər keçirilmişdir, gələcəkdə də bu, istisna deyil. Yay Olimpiya Oyunlarına hazırlığın son mərhələsindəyik. 2023-cü il bir çox parametrlər üzrə həlledici il olacaqdır. Ona görə bizim bütün idman ictimaiyyətimiz, nazirlik, Milli Olimpiya Komitəsi, federasiyalar, klublar, idman cəmiyyətləri, əlbəttə, əsas istiqaməti bunda görməlidirlər ki, Azərbaycan Yay Olimpiya Oyunlarında da öz gücünü təsdiqləsin.

İdmanın kütləviliyinə gəldikdə isə hesab edirəm ki, bölgələrdə təbliğat daha geniş vüsət almalıdır. Biz son vaxtlar Bakı şəhərinin parklarının bir neçəsində açıq havada idmanla məşğul olmaq üçün şərait yaratmışıq, trenajorlar quraşdırılıb. Hesab edirəm ki, biz bu təcrübəni bütün bölgələrə aparmalıyıq, orada tətbiq edilməlidir. Nazirlik, yerli icra orqanları bu məsələ ilə ciddi məşğul olsunlar. Çünki hər bir insanın, bəlkə, həm vaxtı, həm də maliyyə imkanları olmur ki, idman zallarına getsin. Ona görə açıq havada, – nəzərə alsaq ki, Azərbaycanın əksər yerlərində hava şəraiti il boyunca müsbətdir, – bunun çox böyük təsiri olacaq, həm insanların sağlamlığı üçün, həm də, bütövlükdə, idmanın inkişafı üçün. Ona görə hesab edirəm ki, buna böyük ehtiyac vardır.

Azad edilmiş ərazilərdə keçən il bir neçə beynəlxalq idman yarışı keçirilmişdir. Bunun çox böyük tarixi əhəmiyyəti var. Çünki azad edilmiş ərazilər indi canlanır, həyat qayıdır, insanlar qayıdır. Bildiyiniz kimi, tarixi Zəfərimizdən dərhal sonra azad edilmiş torpaqlarda genişmiqyaslı quruculuq-bərpa işlərinə başlamışıq və o bölgələrdə beynəlxalq idman yarışlarının keçirilməsinin çox böyük rəmzi mənası var. Şuşada beynəlxalq şahmat yarışı, Suqovuşanda, Suqovuşan göləndə beynəlxalq avarçəkmə yarışı keçirilmişdir. Zəngilanın Ağalı kəndinin ətrafında triatlon üzrə yarış keçirilmişdir. Mən bunu çox yüksək qiymətləndirirəm və bu il də bu işlər davam etdirilməlidir.

Onu da bildirməliyəm ki, azad edilmiş şəhərlərin hər birində idman qurğularının yaradılması nəzərdə tutulur. Bütün şəhərlərin Baş planları təsdiq edilib. Bütün bərpa-quruculuq işləri Baş planlar əsasında aparılacaq və idman obyektlərinin yaradılması nəzərdə tutulur. Bildirməliyəm ki, Ağdamın məşhur "İmarət" stadionunun yeni layihəsi işlənilir. Stadion yenidən qurulacaq, eyni zamanda onun yanında böyük Olimpiya İdman Kompleksi yaradılacaq. Bununla bərabər olaraq, keçən il Ağdamın Eyvazxanbəyli kəndində Qarabağ Atçılıq Kompleksinin təməli qoyuldu. Biz Qarabağ Atçılıq Kompleksini işğal dövründə Ağcabədi rayonunda yaratmışdıq, yenə də Qarabağ torpağında yaratmışdıq. Ancaq qərar qəbul olundu ki, bunun əzəli yerində – Eyvazxanbəyli kəndində çox gözəl, müasir atçılıq kompleksi yaradılsın. Artıq işlərə start verilmişdir.

Azad edilmiş bütün digər şəhərlərdə idman obyektlərinin yaradılması planlarımızdadır. Əlbəttə, biz, ilk növbədə, keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytarmalıyıq və bu istiqamətdə işlər gedir. İlk növbədə, məktəblər, xəstəxanalar, infrastruktur yaradılmalıdır. Ancaq idman obyektləri də, əlbəttə ki, yaddan çıxmır və çıxmayacaq.

Bütün bunları qeyd edərək bir daha demək istəyirəm ki, Azərbaycan özünü dünyada güclü idman dövləti kimi təsdiqləyib və bütövlükdə, ölkəmizin dünya arenasında

*Ardı 2-ci səhifədə*

mövqeyi ildən-ilə möhkəmlənir. Biz öz siyasətimizi ardıcıl şəkildə aparırıq. Azərbaycanda sabitlik, əmin-amanlıq, təhlükəsizlik hökm sürür, genişmiqyaslı quruculuq işləri aparılır. Tarixi Zəfərimiz hər bir azərbaycanlı üçün, hər bir vətəndaş üçün, bütün dünya azərbaycanlıları üçün qürur mənbəyidir. Biz gələcək nəsli də vətənpərvərlik ruhunda tərbiyə edəcəyik, necə ki, bunu həmişə etmişik və elə gözəl gənc nəsil yetişdirmişik ki, həm idman arenalarında ölkəmizin bayrağını qaldırır, həm də döyüş meydanında. İkinci Qarabağ müharibəsində iştirak edənlərin mütləq əksəriyyəti gənclər idi – bizim siyasətimiz əsasında yetişən, həm cəmiyyətdə, həm də ailələrdə gözəl tərbiyə alan gənclər idi. Bu amil, əlbəttə ki, bütün sahələrdə özünü göstərir. Yəni artıq iki ildən çoxdur ki, xalqımız müzəffər xalq kimi yaşayır və bu qürurverici amil bizimlə bundan sonra əbədi olacaq. Sadəcə olaraq, bizim hər birimiz də öz sahəmizdə, öz fəaliyyətimizdə bu müqəddəs Zəfərə layiq olmalıyıq. Əminəm ki, indi idmançılarımız beynəlxalq yarışlarda iştirak edərkən onlar tamamilə başqa bir həvəslə, hətta başqa bir hərəkətlə çıxış edirlər və bizim müzəffər xalq olmağımızın həqiqətini bir daha təsdiqləyirlər.

Mən əldə edilmiş bütün uğurlar münasibətilə idmançıları, onların məşqçilərini, idman ictimaiyyətini bir daha təbrik etmək istəyirəm. Adətən, idman yekunları ilə bağlı görüşlərimiz ilin sonunda baş verirdi, lakin keçən ilin sonunda bir çox tədbirlər olduğu üçün belə imkan olmadı. Ancaq hesab etdim ki, biz bu ənənəni bərpa etməliyik. COVID dövründə belə imkan olmamışdır. Ancaq ənənələr Azərbaycan xalqının dünyagörüşünün ayrılmaz bir tərkib hissəsidir. Ona görə biz bu ənənəni bərpa etmişik.

Yeni uğurlar, yeni qələbələr, Azərbaycan dövləti hər zaman sizin yanınızda olacaq. Sizin uğurlarınıza bütün xalqımız sevinir, bütün uğurlar yüksək səviyyədə qiymətləndirilir və qiymətləndiriləcəkdir.

Bir daha sizə yeni qələbələr, yeni uğurlar arzulayıram. Sağ olun.

***

Sonra Azərbaycanda idmanın inkişafında xidmətləri olan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olunub.

**AZƏRTAC**

## Şərur rayon sakinlərinin müraciətləri dinlənilib

Yanvarın 7-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Şərur rayonunda olub, sakinlərlə görüşüb, onların müraciətləri dinlənilib.

Əvvəlcə rayon mərkəzindəki Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, gül dəstələri qoyulub.

Sonra sakinlərin müraciətləri dinlənilib.

Görüşdə 203 rayon sakininin şikayəti dinlənilib.

Görüşdən sonra Şərur şəhərindəki Şəhidlər xiyabanı ziyarət edilib.

Yanvarın 9-da isə Şərur rayonundan olan şəhid ailələri ilə görüş keçirilib, 20 şəhid ailəsinin müraciəti qəbul olunub.

**“Şərq qapısı”**

## Naxçıvan Baş Gömrük İdarəsində xidməti müşavirə keçirilib



Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırovun rəhbərliyi ilə Naxçıvan Baş Gömrük İdarəsində xidməti müşavirə keçirilib.

Görüşdə gömrük xidmətinin fəaliyyətinin müasir çağırışlara uyğun şəkildə qurulması, gömrük işinin səmərəliliyinin, şəffaflığın, vətəndaş məmnuniyyətinin artırılması, prosedurların rasionallığının təmin olunması, daha əlverişli biznes mühitinin yaradılması, gömrük hüquqpozmalarına qarşı mübarizənin gücləndirilməsi, bilikli kadrların potensialından səmərəli istifadə ilə bağlı konkret tapşırıq və tövsiyələr verilib.

*Son illər ölkəmizdə polis orqanlarının fəaliyyətinin yüksək səviyyədə təmin edilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir. Prezident cənab İlham Əliyevin diqqət və qayğısı ilə Daxili İşlər Nazirliyi sistemində də fəaliyyət keyfiyyətcə yeni mərhələyə yüksəlib. Daxili İşlər Nazirliyi orqanlarında maddi-texniki təchizat hər il daha da yaxşılaşdırılır, yeni xidməti avtomobillər və texniki vasitələr alınıb istifadəyə verilir.*

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə 9 yeni xidməti avtomobil təqdim edilib



Dövlət başçısının bu sahəyə qayğısının davamı olaraq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə 9 yeni xidməti avtomobil təqdim edilib.

1 ədəd “Toyota Land Cruiser” markalı avtomobil rəhbər heyət, 6 ədəd “Fiat Doblo” markalı avtomobil post-patrul və 2 ədəd “BMW” markalı avtomobil isə yol-patrul xidməti üçün nəzərdə tutulub.

Qeyd edək ki, post-patrul, növbətçi hissə və çevik polis alayı, o cümlədən yol polisi əməkdaşları üçün yeni alınan “Fiat Doblo” və “BMW” markalı avtomobillər xidmətin operativliyi baxımından mühüm əhəmiyyət kəsb edir. Müasir interyerə malik avtomobillərin hər biri ən yeni rəqəmsal radiorabitə, səsgücləndirici və sayrışan işıq sisteminə malikdir.

## Culfa rayonunda vətəndaş qəbulu keçirilib, onların problemlərinin həlli üçün tapşırıqlar verilib



Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində aparılan kadr islahatından sonra vətəndaşların qəbulu, şikayət və ərizələrinə baxılması, problemlərinin həll edilməsi üçün nəzarətə götürülməsi işinə ciddi yanaşılır. Yanvarın 9-da Culfa Rayon Polis Şöbəsinin inzibati binasında növbəti belə tədbir keçirilib. Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, polis polkovniki Süleyman Neymətov 63 nəfəri şikayətlərinin öyrənilməsi üçün qəbul edib, onların problemlərinin həlli üçün baş idarə, idarə və şöbə rəislərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, müraciətlərin əksəriyyətinin həllinə baxılıb. Digər müraciətlər isə araşdırma tələb etdiyi üçün icraat üçün nəzarətə götürülüb. Araşdırmalar çərçivəsində müraciətlərin mahiyyətinə uyğun və nəticəsindən asılı olaraq müvafiq qərarlar qəbul olunacaq.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi tərəfindən analoji tədbirlərin digər rayonlarda da keçirilməsi nəzərdə tutulub.

**Xəbərlər şöbəsi**

*2023-cü il “Heydər Əliyev İli”dir*

## Vahid, qüdrətli Azərbaycan naminə BÖYÜK QAYIDIŞ

*Zamanın gərdişini – dünyəvi tarixi-siyasi prosesləri ədalətli şəkildə – milli mənafelərimizə uyğun olaraq dəyişməyi bacaran müstəqil Azərbaycan daha bir ili arxada qoydu. Təkcə tarixi yaşamayıb tarixi öz şərəf və ləyaqət dəstxəti ilə yazmağı bacaran xalqımız “Şuşa ili”ni möhtəşəm nailiyyətlərlə yola salaraq “Heydər Əliyev İli”nə qədəm qoydu. Azərbaycan Tarixi Zəfərdən sonra “Şuşa ili”ni hər bir vətəndaşının qəlbində taxt qurmuş Şuşada qurub-yaratmaq şövqü ilə başa vurdu. Estafet daha bir şərəfli ilin – ümummilli ideyalar və yeni zəfərlər məxəzi olacaq “Heydər Əliyev İli”nindir. Milli qürur və ləyaqət hissi ilə yola saldığımız “Şuşa ili”ndən sonra* ***“Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur”*** *məramı ilə yaşayan və bunu ən müqəddəs siyasi vəsiyyətinə çevirən Ümummilli Liderimiz Heydər Əliyevin 100 illiyi ilə bağlı mühüm bir mərhələyə qədəm qoymağımız tarixi zərurətdən doğan məntiqi ardıcıllıqdır, bu, Azərbaycanın reallıqlardan doğan qalibiyyət kodeksidir.*

Bu, bir tarixi həqiqətdir ki, Ulu Öndər çoxşaxəli siyasi fəaliyyətini ölkəmizin ərazi bütövlüyünün qorunması strategiyasının həyata keçirilməsinə həsr etmiş, bu vacib siyasi nüansa Azərbaycanın başlıca milli maraqlarından biri kimi daim ciddi diqqət yetirmişdir. ***“Müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır”***, – deyən görkəmli dövlət xadimi Azərbaycançılığı milli ideologiyadan müstəqil Azərbaycan dövlətinin ideologiyası səviyyəsinə qaldırmışdır. Dahi rəhbərin layiqli siyasi varisi cənab İlham Əliyev də Prezident kimi başlıca vəzifəsinin ölkəmizi gücləndirmək və ərazi bütövlüyümüzü bərpa etmək olduğunu dəfələrlə bəyan etmiş, məhz Ulu Öndərin siyasi xəttini davam və inkişaf etdirməklə güclü Azərbaycan dövləti qurulduğunu demişdir. Bəli, Azərbaycan, sözün əsl mənasında, hər bir azərbaycanlının fəxr edə biləcəyi qalib, qüdrətli dövlətlə “Heydər Əliyev İli”nə qədəm qoydu.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətini dərindən təhlil etdikdə bir daha aydın görərik ki, ötən il ərzində ölkədə həyata keçirilən dövlət siyasəti bütün konturları ilə məhz güclü, qüdrətli olmaqla yanaşı, həm də tarixi torpaqlarına sahiblənən vahid, bütöv Azərbaycan formalaşdırılmasına xidmət edib. Ötən ilə nəzər saldıqda ölkə başçımızın hələ Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə 2022-ci ildəki müraciəti zamanı verdiyi ***“Mən isə Prezident kimi, Ali Baş Komandan kimi hər zaman Azərbaycanın maraqlarının keşiyində duracağam, ölkəmizin hərtərəfli inkişafı, hərbi gücünün artırılması, vətəndaşların daha yaxşı yaşaması üçün əlimdən gələni əsirgəməyəcəyəm”*** vədinə bütün varlığı ilə sadiq qaldığını, hər tarixi fürsətdə bu müqəddəs məramı gerçəkləşdirməyə nail olduğunu görürük. Bu məramın əsasında isə dövlət başçımızın özünün də vurğuladığı kimi keyfiyyətcə yeni bir həyata qayıdış olacaq Böyük Qayıdışın reallaşması durur. Bu təkcə hazırda işğaldan azad olunmuş torpaqlara qayıtmaq deyil, böyük mənada, daha uzaq, siyasi hədəfləri özündə ehtiva etməklə bütöv Azərbaycana – Qərbi Azərbaycan kimi itirilmiş tarixi torpaqlara qayıdış məramı daşıyır.

### *“Dövlətimiz güclüdür və iradəmiz yerindədir”*

Vətən müharibəsində qazanılan, xalqımızın əbədilik milli qürur mənbəyinə, iftixar rəmzinə çevrilən Tarixi Qələbəmiz ölkə başçısının da Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində qeyd etdiyi kimi, ötən il siyasi müstəvidə daha da möhkəmləndirildi. Azərbaycanın müharibədən yeni çıxmasına baxmayaraq, postmüharibə dövründə də ölkədə ordu quruculuğu siyasətinin uğurla reallaşdırılmasının nəticəsi idi ki, kifayət qədər hərbi potensiala malik olduğunu, necə deyərlər, “Dəmir yumruğ”un yerində olub istənilən vaxt düşmənə qətiyyətli cavab verərək qisas ala biləcəyini bir daha təsdiqlədi. Ötən il Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri bir neçə dəfə genişmiqyaslı təxribat törətdi. Bu revanşist cəhdlərə cavab olaraq Fərrux əməliyyatı, “Qisas” əməliyyatı, eyni zamanda sentyabr ayında Naxçıvandan olan hərbi qulluqçu, baş leytenant Əli Əliyevin də şəhid olduğu, Azərbaycan və Ermənistan sərhədi istiqamətində gedən toqquşmalar növbəti parlaq qələbəmizlə nəticələndi. Azərbaycan bir çox əlverişli strateji yüksəkliklərdə öz mövqelərini daha da möhkəmləndirdi. İlin ən möhtəşəm hərbi-siyasi zəfəri isə avqustun 26-da – nəzərdə tutulmuş vaxtdan xeyli əvvəl Laçın şəhərinin, Laçın rayonunun Zabux və Sus kəndlərinin azad edilməsi, sentyabrın 21-də ölkə başçımızın Laçın şəhərində Dövlət Bayrağımızı əbədi yüksəkliklərə ucaltması oldu. Qeyd edək ki, qırx dörd günlük Vətən müharibəsi zamanı Ermənistanı Xankəndi ilə birləşdirən avtomobil yolu şəhərin ortasından keçdiyi üçün Azərbaycan Laçın şəhərini nəzarətə götürməmişdi. Lakin müharibənin sonunda Ermənistanın məcburən imzaladığı kapitulyasiya aktında Azərbaycan Respublikasının Prezidentinin təkidlə yeni alternativ yolun çəkilişini ortaya qoydu. 1 il 8 aydan sonra artıq bu yolun hazır olması nəticəsində Azərbaycan Ordusu Laçın şəhərinə daxil oldu. Azərbaycan Ermənistanı 10 noyabr Bəyannaməsinə əməl etməyə məcbur etməklə növbəti dəfə siyasi qətiyyət göstərmiş, düşmənə dərs vermiş oldu. Dövlət başçımız yeni il qabağı müraciətində Laçın şəhərində aparılan genişmiqyaslı quruculuq-bərpa işlərinə əsaslanaraq əminliyini bildirmişdir ki, 2023-cü ildə laçınlılar Laçına qaytarılacaq. Siyasi müstəvidə qələbənin zirvəsi isə ötən ilin oktyabr ayında keçirilən Praqa və Soçi görüşlərində Ermənistanın ölkəmizin ərazi bütövlüyünü və suverenliyini rəsmən tanıması oldu. Bütün şərtlər təmin edildiyi üçün Azərbaycan tərəfindən təklif olunmuş məlum beş prinsip əsasında sülh müqaviləsi imzalanması daha da reallaşdı.

*Ardı 3-cü səhifədə*

Azərbaycan İkinci Qarabağ müharibəsində hərbi-siyasi Zəfərinin ardından qarşıda duran vəzifələrin yerinə yetirilməsini ötən il də uğurla davam etdirib. Ötən il işğaldan azad edilmiş ərazilərdə bərpa işlərinin aparılması istiqamətində işlər uğurla davam etdirilib. Dövlət başçısının da müraciətində bildirdiyi kimi, artıq bir neçə şəhərdə inşaat işləri geniş vüsət almışdır, barbarcasına dağıdılan dini-tarixi abidələrimiz Heydər Əliyev Fondunun xətti ilə yenidən inşa edilir: ***"İlk növbədə, Şuşa, eyni zamanda Ağdam, Füzuli, Zəngilan, Laçın şəhərlərində geniş quruculuq işləri gedir, xəstəxanalar, məktəblər, yaşayış binaları inşa edilir. Bununla bərabər, 10-dan çox kəndin Baş planı təsdiqləndi və bir neçə kəndin təməlini mən şəxsən qoymuşam".*** Ölkə başçımız yeni il qabağı xalqa bildirdi ki, bütün işlər Baş planlar əsasında gedəcək. Böyük Qayıdış Proqramında bütün planların öz əksini tapdığını deyən Prezident cənab İlham Əliyev əminliklə bildirdi ki, yüz minlərlə keçmiş köçkün yaxın gələcəkdə öz doğma torpağına qayıdacaq.

2022-ci ilin yaddaqalan hadisəsi kimi azad edilmiş torpaqlarda ikinci hava limanının – Zəngilan Beynəlxalq Hava Limanının açılışını xatırlatmaq yerinə düşər. Oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak etmək üçün gələn qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan hava limanına enən ilk təyyarənin trapında bütün diplomatik jestlərin fövqündə dayanan hərarətli, sevinc dolu, məmnunluq və qürur hissini büruzə verməsi, şübhəsiz ki, hafizələrdən silinməyəcək. Bu, ağır və sınaq dövrü kimi səciyyələnən postmüharibə dövründə dünyada görünməyən, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində nail olduğu sürətli quruculuq və bərpa prosesinə, bütövlükdə, verilən yüksək qiymət idi. Bütün bu faktlar, dövlətimizin başçısının azad edilmiş torpaqlara ötən il 21 dəfə səfər etməsi bir daha onu göstərir ki, Azərbaycan torpaqlarını işğaldan azad etməyə qadir olduğu kimi, ona sahiblənməyi – özü də xalqına arxalanan bir dövlət olaraq bütün siyasi iradəsi, iqtisadi gücü ilə sahiblənməyi, erməni vandallarından fərqli olaraq öz doğma torpaqlarında qurub-yaratmağı yaxşı bacarır.

### *"Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də"*

Tarixə nəzər salsaq, görərik ki, qalib tərəf – ən əsası isə ədalətli şəkildə qələbə qazanan tərəf həm də proseslərin sonrakı gedişinə birbaşa təsir edən, diktəedici tərəf olub. Bu mənada, 44 günlük Vətən müharibəsinin tarixi-siyasi əhəmiyyətliliyi təkcə Hərbi Zəfərlə ölçülməməli, həm də qalib tərəf olaraq Azərbaycana daha geniş imkanlar qazandırmaq baxımından Siyasi Qələbə kimi dəyərləndirilməlidir. Məsələn, Zəngəzur dəhlizinin açılmasının günbəgün reallaşması dövlətimizin müharibədən sonrakı dövrdə düşmən üzərində təkcə hərbi deyil, siyasi, mənəvi-psixoloji üstünlüyünü də qoruyub saxladığını bir daha təsdiq edir. Onu da qeyd etmək yerinə düşər ki, Azərbaycan 30 ilə yaxın bir dövrdə BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb edən dörd qətnaməsinin icrası istiqamətində sülh şəraitində siyasi mübarizə aparmış Prezident cənab İlham Əliyevin ötən il keçirilən Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Sammitindəki çıxışında da qeyd etdiyi kimi, bəzi aparıcı beynəlxalq təşkilatların səmərəsizliyi ilə üzləşmiş, 44 günlük Vətən müharibəsinin nəticəsi olaraq Azərbaycan bu qətnamələri beynəlxalq hüququn normaları çərçivəsində özü həyata keçirmişdir. Postmüharibə dövründə də ölkəmiz beynəlxalq sülhün təminatçısı kimi eyni siyasi prinsipiallıq və qətiyyət nümayiş etdirmişdir. Belə ki, müharibə nəticəsində beynəlxalq hüququn normalarını təmin edən Azərbaycan sonrakı mərhələdə də, bütövlükdə, Cənubi Qafqazda sülh və qarşılıqlı əməkdaşlıq şəraitində yeni reallıqların müəllifi kimi çıxış edərək heç vəchlə beynəlxalq prinsiplərə tabe olmayan "ipə-sapa yatmaz" Ermənistanı 10 noyabr Bəyannaməsinin prinsiplərinə riayət etməyə təhrik etməkdədir.

Zəngəzur dəhlizi yalnız Qafqaz üçün deyil, daha geniş anlamda region üçün strateji əhəmiyyətə malikdir. Bu məsələnin həlli ilə tarixi Azərbaycan torpağı Zəngəzur Türk dünyasını birləşdirəcək. Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan, həyata keçirilən tikinti işlərinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır. Zəngəzur dəhlizinin istifadəyə verilməsi, eyni zamanda Azərbaycanı regionun əsas nəqliyyat qovşaqlarından birinə çevirəcək. Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir, birbaşa həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin inkişafına həm də maliyyə dəstəyi nümayiş etdirir. Bu, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Bu məsələ Azərbaycanın digər rayonlarını Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir. Bu dəhlizdə tək avtomobil yolu deyil, paralel olaraq Naxçıvanla birləşən keçmiş dəmir yolu bərpa olunacaq, boru və qaz kəmərləri açılacaq. Gələcəkdə Azərbaycanla Naxçıvan arasında olan ərazi şimal-cənub və qərb istiqamətində olan bütün kommunikasiyaların məhz Naxçıvandan Türkiyəyə, oradan da Aralıq dənizi vasitəsilə digər Qərb dövlətlərinə çıxmaq imkanı yaradacaq. Beləliklə, Zəngəzur dəhlizinin açılması Azərbaycanın siyasi-strateji mövqeyini xeyli yüksəltməklə, onun iqtisadi qüdrətini əhəmiyyətli dərəcədə artıracaq, eyni zamanda logistik mərkəz kimi Naxçıvanın da inkişafına mühüm təkan vermiş olacaq.

Onu da qeyd edək ki, Zəngəzur dəhlizinin yaradılması Azərbaycan, Rusiya, Ermənistan liderlərinin 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatı ilə yanaşı, 2021-ci il yanvarın 11-də imzalanmış üçtərəfli bəyanatda da təsbit edilib. Zəngəzur dəhlizi layihəsinin icra edilməsi üçün Azərbaycan öz öhdəsinə düşən hər bir işi yerinə yetirir, ölkə başçımızın da yeni il qabağı müraciətdə də səsləndirdiyi kimi, işlər sürətlə davam etdirilir. Eyni bəyanata əsasən Azərbaycan Ermənistandan erməni əhalinin yaşadığı Azərbaycanın Qarabağ regionuna maneəsiz gediş-gəlişi öhdəsinə götürür.

Ermənistanın Zəngəzur dəhlizi ilə bağlı öhdəliyini nəzərdə tutulan qaydada icra etməməsi isə Azərbaycan tərəfindən Laçın dəhlizinin bağlanması ilə nəticələnə bilər. Belə də isə, başabəla qondarma erməni dövləti yaratdığı disbalansla öz toplumunu yenidən təhlükə altında qoyacaq. Dəhlizin açılması kimi mühüm tarixi addım həm də Azərbaycanın düşməni təcavüzkar siyasətdən əl çəkib regional əməkdaşlığa vadar etməklə dünyada beynəlxalq sülh və asayişin, humanizm prinsiplərinin qarantı olduğunu təsdiq edir.

Zəngəzur dəhlizi təkcə Cənubi Qafqazda yox, bütün Avrasiyada böyük əhəmiyyətə malik yeni kommunikasiya xəttidir, Türkiyə üçün Mərkəzi Asiyaya qapı rolunu da oynayacaq. Prezident cənab İlham Əliyev də məsələyə bu qlobal prizmadan yanaşaraq Zəngəzur dəhlizinin açılmasını ötən il ən ali beynəlxalq kürsülərdən dünya ictimaiyyətinin də tələbi kimi səsləndirmişdir. Azərbaycan Respublikasının Prezidenti yanvarın 25-də İranın yol və şəhərsalma naziri, Azərbaycan-İran Hökumətlərarası Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Rüstəm Qasiminin başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edərkən iyunun 16-da "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumunun açılış mərasimində, iyun ayının 29-da Aşqabadda keçirilmiş Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında, oktyabrın 31-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə Soçi şəhərində görüşdə, sentyabrın 16-da Səmərqənddə Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Sammitində, 11 noyabrda keçirilən Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə, dekabrın 14-də Türkmənbaşı şəhərində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə geniş tərkibdə görüşündəki çıxışlarında bu məsələnin həllinin vacibliyini siyasi qətiyyətlə ortaya qoymuşdur.

Zəngəzur dəhlizi həm də 100 il sonra Vətən müharibəsində qazanılan Böyük Qələbə nəticəsində itirilmiş torpaqları qaytarmaqla tarixi ədaləti bərpa etmək deməkdir. Prezident cənab İlham Əliyevin Zəngəzur dəhlizinin açılması ilə bağlı mübarizəsi bu mənada, bütövlükdə, regional əmədaşlıq, kommunikasiyaların bərpasına deyil, daha böyük siyasi uzaqgörənliklə milli maraqlara xidmət edir: ***"Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik..."*** Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bu məsələyə qayıdan dövlətimizin başçısı vurğulamışdır: ***"Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də. Biz ortaya güclü iradə qoymuşuq, bütün işlər plan üzrə gedir. Bizim tələbimiz əsaslıdır və ədalətlidir. Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə bizim bağlantımız olmalıdır və olacaqdır".*** Onu qeyd etmək yerinə düşər ki, məsələyə obyektiv yanaşılsa, əslində, Zəngəzur dəhlizinin açılmasını daha çox Ermənistan arzulamalıdır. Ermənistan onsuz da müharibədə yetərincə məğlubiyyətə düçar olub, dünyaya rəzil olan bir dövlət kimi günü-gündən daha da ağırlaşan və qaçılmaz olan siyasi-iqtisadi tənəzzüldən – tarix səhifəsindən birdəfəlik silinmək rüsvayçılığından xilas olmaq istəyirsə, özü-özünü məhv etməkdənsə, regiondakı geosiyasi reallıqları qəbul edib Azərbaycan, Türkiyə və digər region dövlətləri ilə normal siyasi-iqtisadi tərəfdaşlığa qol qoymalıdır.

### *Dahi öndərin Vətəni "Heydər Əliyev İli"nə yeni inkişaf strategiyası ilə qədəm qoydu*

***"Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə bizim bağlantımız olmalıdır və olacaqdır"*** ifadəsini təkcə Naxçıvanı blokadadan xilas edəcək Zəngəzur dəhlizinin açılması məsələsinə deyil, həm də dövlət idarəçiliyində müasir demokratik yolla aparılan islahatlar nəticəsində Naxçıvanı Azərbaycana daha sıx, möhkəm tellərlə bağlamaq məramına da şamil etmək olar. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf konsepsiyasının ardıcıl şəkildə həyata keçirilməsi nəticəsində ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da davamlı və dinamik inkişafa nail olunub. ***"Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün Ulu Öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax bu inkişafda təcəssüm etdirir"***, – deyən Prezident cənab İlham Əliyev Ümummilli Liderin Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarının, arzularının yerinə yetirilməsi ilə bağlı vəsiyyətinə də sadiqliyini hər zaman nümayiş etdirib. Qarabağda, Şərqi Zəngəzurda bərpa-quruculuq işlərinin daha sürətli və uğurla həyata keçirilməsi məqsədilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə Prezidentin xüsusi nümayəndəliklərinin yaradılması regionların idarəetməsinin yeni və effektiv üsulu kimi özünü doğrultduqdan sonra dövlətimizin başçısının Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası üzrə Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyinin yaradılması daxili siyasət sferasında ilin hadisəsi kimi də dəyərləndirilə bilər.

Müasir və daha da təkmilləşdirilmiş vahid idarəetmə sistemi formalaşdırmaq, iqtisadi resurslardan istifadə imkanlarını genişləndirmək məqsədilə atılan bu addım dövlətə etimad hissinin daha da gücləndirilməsi kimi siyasi nailiyyətlərə, yüksək sosial rifaha nail olunmasına rəvac verəcək. Naxçıvan Muxtar Respublikası üzrə Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi institutunun yaradılması, korrupsiya, rüşvətxorluq, qeyri-şəffaflıq və digər neqativ halların aradan qaldırılmasında da mühüm rol oynayacaq, Naxçıvanın sürətli və hərtərəfli inkişafını təmin edəcək. Ölkə Prezidenti Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsini təyinatla bağlı qəbul edərkən insanların qayğısına qalınması, korrupsiya, rüşvətxorluqla mübarizə, şəffaflıq, düzgün kadr siyasətinin həyata keçirilməsi, mərkəzi icra orqanları ilə sıx təmasda fəaliyyətlə bağlı tapşırıqlar verməsi bu diyara qayğıdan, doğma münasibətdən irəli gəlir. Artıq qısa zaman ötməsinə baxmayaraq, insanlara qarşı sadə, səmimi rəftar həm Naxçıvan şəhərində, həm də bir neçə rayonda vətəndaşların problemləri ilə yaxından maraqlanma sakinlərdə inam və rəğbət hissi, ruh yüksəkliyi yaradıb. Yeni ilə yeni inkişaf mərhələsi ilə qədəm qoyan Naxçıvan Muxtar Respublikası Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə daha sürətlə tərəqqi edəcəkdir. Yeni idarəçilik sistemi yeni cəmiyyət quruculuğuna öz töhfələrini verəcək. Bütün bu proseslərin isə, eyni zamanda Zəngəzur dəhlizinin açılmasına ciddi hazırlıq mərhələsi kimi də qiymətləndirmək olar. Çünki sözügedən dəhlizin açılması ilə Naxçıvan logistik mərkəzə çevriləcək, bu diyar regionda mühüm tranzit əhəmiyyətliliyi ilə dünyanın diqqət mərkəzində olacaq. Buna görə də mövcud siyasi-iqtisadi, demoqrafik problemlərin vaxtında həll edilməsi olduqca zəruridir. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli müsahibələrinin birində deyib: ***"Prezident cənab İlham Əliyevlə görüşdə onun Zəngəzur dəhlizinin açılması ilə bağlı qətiyyətini hiss etdim. Zəngəzur dəhlizi həm lokal, həm regional, həm də kontinental şəkildə xidmət göstərəcək ki, bu, Naxçıvanın tamamilə blokadadan çıxarılması deməkdir".***

### *Ümummilli Lider yoluna sadiq Azərbaycan*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində ötən ilin uğurları ilə yanaşı, ölkə başçısının təqdimatında müstəqil Azərbaycanın daha şərəfli və məsul bir il olacaq "Heydər Əliyev İli"ndəki siyasi prioritetləri, ümdə vəzifələr ilə də tanış olduq. Məqalənin əvvəlində də qeyd etdiyim kimi, "Zəfərdən zəfər doğar" aksiomu ilə yanaşsaq, Böyük Qayıdış, daha dərin və geniş siyasi məfhum olub Ümummilli Liderin ən müqəddəs, siyasi irsi olan Azərbaycançılıq ideologiyasının işığında Azərbaycanın bütövlüyünə, tarixinə, tarixi ərazilərinə qayıdış kimi səciyyələnir. Aprelin 22-də Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər Qurultayında Prezident cənab İlham Əliyev geniş nitq söyləyərək Azərbaycan diasporunun qarşısında mühüm milli ideoloji vəzifələr qoymuşdur. Belə ki, hər bir azərbaycanlı yaşadığı ölkənin ictimaiyyətini Azərbaycan reallıqları, postmünaqişə dövrü və Azərbaycan tarixi haqqında maarifləndirməyə çalışmalıdır. Tarixi amillərin həmişə istənilən münaqişənin siyasi və digər yollarla həll edilməsi üçün çox vacib olduğunu nəzərə alan dövlətimizin başçısı qeyd etmişdir ki, XIX əsrdə imzalanmış Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələri, Azərbaycan xalqına qarşı edilən haqsızlıqlar haqqında beynəlxalq ictimaiyyət mütləq məlumatlandırılmalıdır. Milli lider, tanınmış siyasətçi, eyni zamanda XIX əsrdə, XX əsrin əvvəllərində ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi, 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Zəngəzurun Azərbaycandan qoparılıb Ermənistana verilməsi, 1940-1950-ci illərdə azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası kimi tarixi faktların dünya ictimaiyyətinə yetərincə təqdim olunmasının Azərbaycanın tarixi haqlarının – tarixi ədalətin bərpası baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulamışdır. Prezident cənab İlham Əliyevin ötən ilki çıxışlarında tez-tez bu məsələyə qayıtması, həmvətənlərimizin öz dədə-baba torpaqlarına bağlılığını milli genofonda məxsus ən ali dəyər kimi qabartması, xalqımıza məxsus "torpaq çəkir" deyimini dəfələrlə işlətməsi Azərbaycançılıq ideologiyasının yeni siyasi müstəvidə qətiyyətli inkişafı məramından irəli gəlir. Azərbaycan Respublikasının Prezidenti Qərbi Azərbaycan icmasının üzvləri ilə görüşündə həmin tarixi torpaqların Azərbaycana məxsus olduğunu bir daha bəyan edərək artıq dövlətimizin tarixi torpaqlarla bağlı növbəti hədəflərini bildirdi: ***"Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar".*** Tarixi torpaqlarımız uğrunda mübarizədə qazanacaqlarımız isə məhz həmrəyliyimizdən, dövlət-xalq birliyinin daha qətiyyətli davamından asılıdır. Bu, Ümummilli Lider Heydər Əliyevin də ən müqəddəs siyasi vəsiyyəti, bu vəsiyyəti yerinə yetirmək isə Ulu Öndərin yüzillik yubileyinə ən dəyərli töhfəmiz olar. Prezident cənab İlham Əliyevin də dediyi kimi: ***"Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir. Biz bu yolla gedirik və bu gün Azərbaycan reallıqları, uğurlar, qələbələr, bax bu yolun təməlində dayanıb".***

**Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Prezident naxçıvanlı idmançını mənzillə təmin edib

*Yanvarın 9-da Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyevin iştirakı ilə keçirilən, 2022-ci ilin idman yekunlarına həsr olunan mərasimdə Azərbaycanda idmanın inkişafında xidmətləri olan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olunub.*



Prezident tərəfindən mənzil orderi ilə mükafatlandırılan idmançılardan biri də Naxçıvan boks məktəbinin yetirməsi Tayfur Əliyev olub.

Qeyd edək ki, Tayfur Əliyev 1 yanvar 1997-ci ildə Naxçıvan şəhərində anadan olub. Hələ uşaq ikən qardaşı Sərxanla bərabər əvvəlcə Cavanşir Salayevin başçılıq etdiyi boks məşğələlərinə qoşulub, sonra isə mərhum Məmmədəli Eyvazovun məşqçiliyi ilə peşəkar karyerasına start verib, çoxsaylı uğurlara imza atıb. Hazırda atası Nəriman Əliyevin şəxsi məşqçiliyi ilə karyerasını davam etdirir.

İlk böyük uğuruna 2011-ci ildə Rusiyanın Qroznı şəhərində məktəblilərin Avropa çempionu kimi nail olub. Qitə çempionatlarındakı növbəti cəhdində isə gənclər arasında gümüş medala layiq görülüb. Yeniyetmə və gənclər arasında keçirilən ölkə çempionatları, eləcə də beynəlxalq turnirlərdəki ardıcıl nailiyyətləri sayəsində milli komandanın heyətinə cəlb olunan Tayfur 2015-ci ildə dünya çempionatında debüt edib, Bakı-2015 Avropa Oyunlarında isə bürünc medal qazanaraq mükafatçılar sırasına düşüb. Həmin il I Avropa Oyunları qaliblərinin və Azərbaycanda idmanın inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən "Tərəqqi" medalı ilə təltif olunub. Bundan sonrakı dövrlərdə davamlı olaraq yığma komandanın heyətində təlim-məşq toplanışları və yarışlarda iştirak edən idmançı Rio-2016 və Tokio-2020 Yay Olimpiya Oyunlarına qatılmaqla dünyanın ən nüfuzlu idman hadisələrində çıxış etmək şansı əldə edib. Bakının 2017-ci ildə ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunlarında bürünc, 2018-ci il gənclərin Avropa çempionatında isə gümüş mükafatçı olub. Son dövrlərdəki ən böyük uğuru hərbçilər arasında keçirilən 2021-ci ilin dünya çempionatında qazandığı bürünc medaldır. 2022-ci ildə keçirilən Azərbaycan çempionatındakı birinciliyi ilə ölkə çempionatlarında qazandığı qızıl medal sayını 13-ə yüksəldib. Sonuncu dəfə Qazaxıstanın Karaqanda şəhərində keçirilən beynəlxalq turniri bürünc medalla tamamlayıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Dövlət Universitetinin müəlliminin məqaləsi nüfuzlu beynəlxalq jurnalda dərc olunub

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru, gənc tədqiqatçı Arzu Abdullayevin "Naxçıvan şəhərində hərbi-siyasi proseslər (XVIII əsrin sonu – XIX əsrin əvvəlləri)" adlı məqaləsi beynəlxalq xülasələndirmə və indeksləmə bazalarına daxil olan və Meksikada nəşr olunan "Revista Dilemas Contemporaneos: Educacion, Politica y Valores" jurnalının 2023-cü ildə nəşr olunmuş ilk sayında dərc olunub.



İngilis dilində dərc edilmiş məqalədə XVIII əsrin sonu, XIX əsrdə Naxçıvan şəhərində siyasi vəziyyət, müharibələrin baş vermə səbəbləri, onların nəticələri araşdırılıb, Naxçıvan şəhərinin hərbi-siyasi proseslərin əsas mərkəzi olduğu qənaətinə gəlinib, xarici dövlətlərin bu əraziyə olan maraqları tədqiq edilib. Tədqiqatçı o dövrə aid mənbələrə və eləcə də arxiv sənədlərinə geniş yer verib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

*Şanlı Vətən müharibəsindən ötən bu müddət ərzində ölkəmizin ictimai-siyasi, sosial həyatında baş verən çox böyük dəyişikliklərin getdiyini müşahidə edirik. İşğaldan azad olunan torpaqlarımızda gedən tikinti-quruculuq, abadlaşdırma, Zəngəzur dəhlizinin çəkilməsi işində həyata keçirilən proseslər, bu istiqamətdə atılan böyük addımlar... Həyata keçirilən tədbirlər sırasında Qarabağ müharibəsi iştirakçılarının, qazilərin, şəhid ailələrinin sosial rifah halının yaxşılaşdırılması, onlara diqqət və qayğının artırılması, maddi təminatlarının gücləndirilməsi, müharibədə psixoloji və fiziki cəhətdən sağlamlığını itirmiş hər bir vətəndaşa lazımi tibbi xidmətin göstərilməsi öndə durur.*

## "Bizə Qələbə səadəti bəxş edənlərə xidmət göstərmək peşə fəaliyyətimizin ən parlaq, ən yaddaqalan səhifəsidir"

Xəbər verdiyimiz kimi, yanvarın 7-də Naxçıvan Muxtar Respublikasında yaşayan müharibə iştirakçıları, qazilər və şəhid ailələri üzvlərinə müvafiq tibbi xidmətlər göstərmək üçün Azərbaycan Respublikası Hökumətinin dəvəti ilə Bakı şəhərindən və Türkiyə Respublikasından həkim-psixoterapevtlər Naxçıvan şəhərinə gəliblər. Qonaqlar əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, dahi rəhbərin xatirəsinə ehtiramlarını bildiriblər. Sonra Heydər Əliyev Muzeyi ziyarət edilib. Qonaqlara məlumat verilib ki, muzey 1999-cu il mayın 10-da fəaliyyətə başlayıb. Hazırda 4 mindən çox eksponatın qorunub saxlanıldığı muzeydə Ümummilli Lider Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasındakı fəaliyyəti dövründə həyata keçirdiyi tədbirlər, qəbul etdiyi mühüm əhəmiyyətli qərarlar, sərəncamlar, sənədlər, fotolar, albomlar nümayiş etdirilir.

Qeyd edilib ki, muzeydə görkəmli dövlət xadiminin həyatı və fəaliyyəti ilə bağlı eksponatlar ehtiramla qorunur, tədqiq və təbliğ edilir. Xalqımızın böyük oğlunun zəngin irsi və dövlətçilik təcrübəsinin öyrənilməsi gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində müstəsna rol oynayır. Ötən illər ərzində Heydər Əliyev Muzeyi Ümummilli Liderimizin həyat və fəaliyyət fəlsəfəsinin, elmi-nəzəri irsinin, Azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılması kimi şərəfli missiyanı layiqincə yerinə yetirib.

Məlumat verilib ki, Ümummilli Lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə səhiyyənin inkişafına diqqət və qayğı göstərib, bu sahədə ardıcıl islahatlar aparılıb. Muzeydə Ulu Öndərin həyat və fəaliyyətinə, onun ailəsinə, görkəmli oftalmoloq-alim Zərifə xanıma aid fotolar, ədəbiyyatlar və digər eksponatlar da qonaqların marağına səbəb olub.

Sonra qonaqlar Naxçıvan Muxtar Respublika Xəstəxanasının Reabilitasiya şöbəsinin fəaliyyəti ilə tanış olublar, Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov qonaqlara şöbə barədə ətraflı məlumat verib.

Qeyd edək ki, muxtar respublikaya dəvət olunan həkim-psixoterapevtlər tərəfindən qazilər, şəhid ailələri və müharibə iştirakçıları üçün müayinələr gün ərzində Naxçıvan Muxtar Respublika Xəstəxanasında aparılıb. Biz də bu müqəddəs işdə yorulmayan, əzmlə, böyük iradə və zəhmətlə çalışan həkimlərimizlə, eləcə də onların şəfqətləri ilə öz sağlamlıqlarına qovuşacaq şəhid ailəsi üzvləri və qazilərimizlə həmsöhbət olmaq üçün həmin ünvanın yolunu tutuq.

Xəstəxanada həyata keçirilən müayinə prosesi ilə ilk tanışlığımız hər kəsdə olduğu kimi, bizdə də müsbət təəssürat yaratdı, vaxt itirmədən həkimlərlə həmsöhbət olmaq üçün xüsusi şöbəyə yaxınlaşdıq. İlk müsahibimiz Fövqəladə Hallar Nazirliyinin psixoloqu, kapitan ***Dilbər Əlixanova*** səfərin məqsədi barədə məlumat verərək diqqətə çatdırdı ki, 44 günlük Vətən müharibəsində öz sağlamlığını itirmiş, ağır psixoloji sarsıntılara məruz qalmış qazilərimiz, müharibə iştirakçılarımız, eləcə də şəhid ailələrimiz artıq bir neçə ildir ki, cəmiyyətimizin ən həssas və kövrək kateqoriyasına aid edilir. Vətən müharibəsində qazandığımız Şanlı Qələbə hər bir azərbaycanlının sonsuz iftixarına, sevincinə səbəb oldu, bu qələbəyə görə biz başda Ali Baş Komandan olmaqla bütün qəhrəman oğullarımıza borcluyuq, bir an belə düşünmədən sinəsini gülləyə sipər edən Vətən hünərvərlərinə borcluyuq. Lakin hər birimizə məlumdur ki, geridə qoyduğumuz müharibə özü ilə bərabər şəhid ailələrinə, qazilərimizə bir çox narahatlıqlar da gətirdi. Ən əsası isə müharibənin acı dəhşətləri ilə üz-üzə, göz-gözə dayanmış qazilərimiz yaşanan problemlərin, unudulmayan o dəhşətli hadisələrin canlı şahidi olublar. Həmin hadisələrin üzərindən nə qədər keçsə də, onlar baş verənləri heç zaman hafizələrindən silə bilmir… Naxçıvan Muxtar Respublikasına gəliş məqsədimiz də əlimizdə olan bütün imkanlardan istifadə etməklə qəhrəman oğullarımızın, övladını, atasını, qardaşını, həyat yoldaşını itirmiş şəhid ailələrimizin dərdlərinə məlhəm olmaq, az da olsa, onların narahatlıqlarını aradan qaldırmaqdır. Ümid edirik ki, buna nail olacağıq.



Həmsöhbətimiz müharibədə əqli sağlamlığını itirmiş, psixoloji cəhətdən sarsıntılara, ağır travmalara məruz qalmış müharibə iştirakçılarının zehni vəziyyətindən, 44 günlük Vətən müharibəsinin yaratdığı sağalmaz yaralardan və onların psixoloji vəziyyətlərindən danışdı: – Hər birimiz yaxşı bilirik ki, müzəffər Ordumuzun qələbəsi ilə yekunlaşmış ədalət savaşının canlı şahidləri – müharibə iştirakçılarının böyük bir qismi müharibənin hər anında ölümlə üz-üzə qalıb. Yanında dostları, yaxınları, tanıdığı insanlar, hətta doğma qardaşları belə şəhid olub, ya da ömürlük öz sağlamlığını itirib. Məsələyə bu aspektdən yanaşsaq, onların müharibədə almış olduqları travmalar miqyasına və yaratdığı ağır fəsadlara görə çox böyükdür. Adətən, bizə müraciət edən müharibə iştirakçılarında müşahidə etdiyimiz psixoloji narahatlıqlar, yəni daxili travmalar psixoloji pozuntu şəklində özünü büruzə verir, kəskin aqressiya, diqqət dağınıqlığı, sinir pozğunluğu müşahidə olunur. Müharibənin acı fəsadlarının onlarda yaratdığı problemləri öz dillərindən eşitmək, yaşadıqları hadisələrə onların gözü ilə şəhid olmaq belə insana ağır gəlir, qaldı ki, onları yaşayasan... Son olaraq onu da diqqətə çatdırım ki, müharibə iştirakçılarına hər bir vətəndaş hansı sahədə çalışmasından asılı olmayaraq, dəstəyini göstərməlidir, psixoloji yardım isə bu proseslərin içərisində aparıcı rol oynamalıdır. Bu, mərkəzləşdirilmiş formada olmalı, hər bir dəstək tam göstərilməlidir, bir sözlə, paralel olaraq maarifləndirmə işləri aparılmalı və nəticələr hər kəsin məlumatlı olması üçün cəmiyyətə təqdim edilməlidir.



Dilbər xanım məlumat üçün onu da diqqətə çatdırdı ki, psixoloji seanslara müraciət etmək istəyən insanlar Fövqəladə Hallar Nazirliyinin ***112*** qaynar xətti ilə əlaqə yaratmalıdırlar. Müraciətə əsasən onlar müəyyən qeydiyyat proseslərindən keçməklə aksiya davam etdiyi müddətdə buraya gələrək bizimlə görüşə bilərlər. Psixoloji problemin növündən asılı olaraq həftədə 1 və ya 2 gün davam edən seanslarımız isə tam ödənişsizdir.



Göstərilən psixoloji xidmətdən məmnunluğunu ifadə edən bir neçə qazimizlə də həmsöhbət olduq. Vətən müharibəsi iştirakçısı ***Nurlan Quliyev*** də onların sırasındadır. O deyir ki, müharibə varsa, itki də var, ağır fəsad da. Müharibənin bizdə yaratdığı fiziki, mənəvi və psixoloji narahatlıqların həyatımızda yaratdığı çətinliklərə görə dövlətimiz öz qayğısını bizdən əsirgəmir, sosial müdafiəmizin təmin edilməsi, rifahımızın yüksəldilməsi və problemlərimizin həlli istiqamətində mühüm addımlar atır. Müharibənin başa çatması ilə Ali Baş Komandanın müvafiq sərəncamlarına əsasən "Şücaətə görə", "Döyüşdə fərqlənməyə görə", "Şuşanın işğaldan azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin işğaldan azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olundum. Elə bu gün Naxçıvan Muxtar Respublika Xəstəxanasına gələn və bizim psixoloji vəziyyətimizlə yaxından maraqlanan həkimlər burada yaşayan müharibə iştirakçıları, qazilər və şəhid ailələri üzvlərinə tibbi xidmətlər göstərməklə dövlətimizin bizə qayğısını bir daha nümayiş etdirirlər.

İkinci Qarabağ müharibəsi zamanı "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunan digər qazimiz ***Arif Niftəliyev*** də öz fikirlərini bizimlə bölüşdü: – Bu gün Naxçıvan Muxtar Respublika Xəstəxanasında həyata keçirilən və bizi sağlamlığımıza qovuşdurmaq üçün yüksək səviyyədə təşkil edilən tibbi aksiya postmüharibə dövründə dövlətimizin bizə göstərdiyi qayğının davamıdır. Türkiyədən və Bakıdan gələn həkim-psixoterapevtlərin apardıqları psixoloji söhbətlər motivasiya xarakterli olmaqla bərabər, həm də yaşadığımız ağır travmaları stabilləşdirmək xarakteri daşıyır. Bu psixoloji seanslar hələ bir müddət davam edəcək. Arzu edirəm ki, bütün qazi yoldaşlarımız, şəhid ailələrimiz öz mənəvi sağlamlıqlarına qovuşsun, dövlətimizin yaratdığı şəraitdən istifadə edərək Vətən müharibəsinin acılarını az da olsa, unutsun. Bunun üçün dövlətimiz əlindən gələni əsirgəmir. Bir məqamı da qeyd edim; biz müharibədə olan zaman əmin idik ki, yaralansaq və ya şəhid olsaq, dövlətimiz bizi və əmanətlərimizi, ailəmizi, övladlarımızı daim qoruyacaq. Bizə yaradılan hər bir şərait üçün ölkə başçımız Prezident cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm.

*Müharibənin bütün reallıqlarını və gerçəkliklərini hər birimiz televiziya və media orqanlarından əldə etdiyimiz məlumatlar əsasında mənimsəmişdik, ya da ordumuzun sosial şəbəkələr üzərindən yayımladığı və sonu Zəfərlə yekunlaşan videokadrlarda görmüşdük. Lakin həmin prosesləri qazilərimizin, müharibə iştirakçılarının dilindən eşitmək, o günlərə bir də onların gözü ilə qayıtmaq tamam fərqli hisslər yaşadır insanda... Qürurumuz, fəxarətimiz odur ki, Vətənimizin doğma, qayğıkeş insanları heç zaman igidlərimizi unutmur, onlara öz doğması, yaxını tək yanaşır, bütün ağrı-acılarını öz dərdləri bilirlər. Qazilərimiz və işinə sədaqətlə yanaşan həkimlərimizlə keçən qısa zaman müddətində bunun bir daha şahidi olduq... Biz də Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa arzu edirik. Təki Vətən sağ olsun!*

**✍ Məcid RƏŞADƏTOĞLU**
**✍ Bülbül QULİYEVA**
**✍ Aysel YUSİFZADƏ**

### *İtmişdir*

Kəngərli rayon Qabıllı kənd sakini Seyidova Zeynəb Cabbar qızına məxsus torpaq sahələrinə verilmiş 112[A] və 112[B] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Naxçıvan-Culfa yolunun 8-ci kilometrliyində "Zərəni" MMC-nin paylı mülkiyyətində olan istixanaya dair 103013001451-0731 reyestr nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 12